# KİTABİ – DƏDƏ QORQUD ABİDƏSİNDƏ ƏXLAQ TƏRBİYƏSİ VƏ ONUN MOTİVLƏRİ

*(Əvvəli ötən saylarımızda)*

Oğuzda dörd igidin üzü niqablı gəzməsi onların məhz «cəmal və kəmal iyəsi» yigit olmalarına görədir. Bu səbəbdən də Qanturalının «cəmal və kəmal iyəsi» olduğunu söyləyən ozan, ardundan «Oğuzda dörd yigit»in niqabla gəzdiyini, Qanturalının da həmin dörd igiddən biri olduğunu deyir.

Humanizm türkün praktik həyatının incisidir. Əgər tarixi araşdırsaq humanistlik orta əsrlərdə türkə məxsus olmuşdur. Avropa dövlətləri humanizmdən dəm vuraraq bu fəlsəfi kateqoriyanı öz adlarına çıxsada, orada əsər-əlamət görünmür. Bu günün hadisələri buna sübutdur. Hazırkı Avropa dövlətləri 800 min qaçqının əlindən dəli olmuşlar. Onları sıxışdırırlar, başlarına cürbəcür oyunlar açırlar. Halbuki kiçik Azərbaycan 1 milyon, Türkiyə isə 4 milyon qaçqını mühafizə edib saxlayır.

Tarixən humanizmdən dəm vuran Avropa dövlətlərində humanistlik nəzərə çarpmır. Əksinə, orada həmişə diskiminasiya, sürgünlər və s. xoşagəlməz işlər baş vermiş və insan fəlakəti və qırğınlar baş vermişdir. Məsələn, XV əsrin ortalarında İsapaniyada yəhudiləri qırmaq ərəfəsində Osmanlı imperiyası yəhudilərə gərək olarmış, onları köçürüb öz imperiyalarında yerləşdirmişlər.

Hazırda qaçqınlara qənim kəsilən Almaniya Federativ Respublikası humanistlikdən dəm vurduğuna baxmayaraq, onun sələfi faşist Almaniyası II Dünya müharibəsi dövründə 6 milyon yəhudinin həyatına son qoydu, bununla bərabər 22 milyon müxtəlif millətlərdən və müxtəlif baxışlı insanları (kommunist, digər azadlıq və demokratiya sevən insanlar) Osventsim Buxenvald, Mauthauzen kimi konslagerlərdə, zavod və fabriklərdə, təcrübə laboratoriyalarında əziyyət verərək əksəriyyətini məhv etdi. Hətta o dövrdə Türkiyə dövləti kütləvi qırğına qarşı çıxıb yəhudiləri istəmişdi ki, öz ərazisində yerləşdirsin. Hitler razı olmamışdır. Ancaq Türkiyə 40 min Fiat minik maşını verib 40 min yəhudini ölümdən xilas edərək satın almışdır.

Bu baxımdan Oğuz İttifaqında da humanistlik önəmli yerlərdən birini tuturdu. Xristian qıpçaqlarının və digər kafirlərin Oğuz ellərinə basqının qarşısı alınarkən kafirlərin, bir «aman» sözünə görə oğuzlar onlara güzəşt edirdilər. Dastanda III boyda deyilir ki, Beyrəyin toyu olarkən, «Yarımasın – yarçımasın kafərin casusu bunları casusladı. Varıb Bayburd hasarı bəginə xəbər verdi. Aydır: «Nə oturarsan, sultanım, Babican bəg ol sana verəcəgi qızı Beyrəkə verdi. Bu gecə gərdəkdə görür» - dedi» (D – 90).

7 yüz kafir hücum edib Beyrəyin toy otağını dağıdıb Beyrəyi və 39 igidini əsir apardılar. Beyrək dustaqlıqdan qaçdı və yenidən Bayburd qalasına 39 igidini azad etməyə getdi. Düşmənə cavab olaraq: ...Qalın oğuz bəyləri atlandıar. Bayburd hasarına çapar yetdilər... Dərələrdə kafərə qırğın girdi. Yedi kafər bəyi qılıcdan keçdi. Beyrək otuz toquz yigidin üzərinə gəldi. Onları sağ və əsən gördi, Allaha şükr eylədi!» (D – 120).

II boyda oxuyuruq: «Yedi bin qaftanının ardı yırtıxlu, yarımından qara saçlu, sası dinlü, din düşməni alaca atlu kafər bindi yılğadı, dün burcuğında Qazan bəgin ordısına gəldi. Altun ban evlərin kafərlər çapdılar, qaza bənzər qızı-gəlini çığırışdırdılar. Tölə-tölə şahbaz atlarını bindilər. Qatar-qatar qızıl dəvələrini yetdilər. Ağır xəzinəsini, bol aqçasını yığmaladılar. Qırq incə belu qız ilə Boyı uzun Burla xatun yesir getdi. Qazan bəgün qarıcaq olmuş anası qara dəvə boynunda asılu getdi.

Xan Qazanın oğlı Uruz bəg üç yüz yigidlən əli bağlu, boynı bağlı getdi. İlək qoca oğlı Sarı Qalmaş Qazan bəgün evi üzərinə şəhid oldı» (D – 38).

Oğuz igidləri düşmənin bu basqınına cavab verdilər. Dastanda deyilir: «Sayılmaqla Oğuz bəgləri tükənsə olmaz. Həb yetdilər... Bitəkəllüf kafərə at saldılar, qılıc çaldılar. Gumbır-gumbır nəqarələr dögüldü. Burması altun tuc borular çalındı.

Ol gün cigərində olan ər yigitlər bəlürdi. Ol gün müxənnətlər sapa yer gözətdi. Ol gün bir qiyamət savaş oldu, meydan tolu baş oldi; başlar kəsildi top kibi... (D – 63)

Qazan bəgün qartaşı kafərin tuğilə sancağı qılıcladı. Yerə saldı. Dərələrdə, dəpələrdə kafərə qırğın girdi, leşinə quzğun üşdı. On iki bin kafər qılıcdan keçdi. Beş yüz Oğuz yigitləri şəhid oldı. Qaçanını Qazan bəg qomadi, «aman» deyəni öldürmədi... Qalın Oğuz bəgləri toyum oldu» (D – 65).

Yeri gəlmişkən, KDQ boylarında Oğuz alp-igidləri sadağı dəmrənli oxla doldurub, ağ tozlu qatı yayı ələ alanda, altun-cida, altıpərli gürzlə yaraqlanıb düşmən üstünə gedəndə qara paladüz qılıncı da götürür və daha çox ona güvənirdilər, birinə alqış deyəndə «çalışanda qara poladüz qılıncın kütəlməsin», and içən zaman «qılıncıma toğranayım» deyərdilər. Qara poladüz qılıncın altından keçən günahkarın sucu bağışlanırdı (7,c.). Bu Oğuzların humanistliyinin

Döyüş səhnələri kimin haqlı, kimin nə haqlı, kimin günahkar, kimin günahsız, kimin cinayətkar, kimin ədalətli olduğunu göstərir. Oğuz igidləri humanistlik olsalar da. Ədalətli olsalar da, düşmən məcbur edir ki, təcavüzə məruz qalan cavab versin.

Yeri gəlmişkən, Qambörənin oğlu Bamsı Dədə Qorqud tərəfindən «Beyrək» adı alması Oğuz elinin humanistliyindən doğmuşdur. Belə ki, Bamsı kafər tacirlərinin talanmış əşya və pullarını talançı kafərlərdən alıb, onların özlərinə qaytarmışdır. 15 yaşlı gəncin bu hümanistliyi haradan yaranmışdır? Bu Oğul ərinin əxlaq və adət-ənənələri içərisində kök salmış insani hissiyatlarının təzahürü idi. Dastanda deyilir: «Baybörə bəgin oğlı atlandı, ova çıxdı. Av avlarkən babasının tavlası üzərinə gəldi. Əmiraxur başı qarşuladı, endirdi, qonaqladı. Yeyib-içüb oturturlardı» (D – 70). Bu anda bir bazırgan Oğuza gəlib Bamsını və onun qırx igidini görür və şikayət edir ki, onların mal və pullarını 500 kafir əllərindən alıblar. Bamsı bu anda atlandı və bazırgan onun qabağına düşdü. Kafirlərin olduğu yerə apardı.

Dastanda deyilir: «Kafər dəxi düşübən bir yerdə aqça ülüşməkdəydi. Bu məhəldə ərənlərin meydanı arslanı, pəhləvanların qaplanı Boz oğlan yetdi. Bir-iki demədi, kafərlərə qılıc urdı. Baş qaldıran kafərləri öldürdi, qəza eylədi. Bazırganların malını qurtardı» (D – 72). Bax, budur Oğuzun humanistliyi.

Yeri gəlmişkən, əxlaq tərbiyələri məslələrində bu müsbət hallardan başqa bəzi mənfi hallara da rast gəlinir, bu mənfi hallar da məkan və zaman daxilində baş verir və bu uzun sürmür, müəyyən vaxt ərzində aradan qalxır. Müvəqqəti xarakter daşıyan bu mənfi hallar dövrün cəmiyyətində yuxarıda, yəni valideyn və ictimai cəmiyyət tərəfindən yaranır ki, yaranan bu mənfi ünsürlər gənclik ədəb-ərkənini zədələyir. Məsələn, Qazan xanla oğlu Uruzun dialoqunu nəzərdən keçirək. Qazan ağlayır. Oğlu Uruz bu ağlamağın səbəbini soruşur:

«Ünim ala mənim, sözüm dinlə ağam Qazan.  
Sağına baxdın, qas-qas güldin.  
Soluna baxdın, çox sevindin.  
Qarşuna baxdın, bəni gördün, ağladun.  
Səbəb nədir degil mana»  
Qazan deyir:  
«Bəri gəlgil qulunum oğul!  
Sağım ələ baqduğımda  
Qartaşım Qaragünəyi gördım, -  
Baş kəsibdir, qan dökipdir,  
Cöndi alubdır, ad qazanubdır.  
Solım ələ baqduğımda  
Tayım Uruzu gördum, -  
Baş kəsibdir, qan dökipdir,  
Cöldi olubdır, ad qazanıbdır.  
Qarşum ələ baqduğımda səni gördim.  
On altı yaş yaşladın.  
Bir gün ola, düşəm öləm, sən qalasan –  
Yay çəkmədün, ox atmdın,  
Baş kəsmədin, qan tökmədin.  
Qanlu Oğuz içində çöldi olmadın.

Yarınkı gün zaman dönib, bən ölib, sən qalıcaq, tacım-taxtım sana vermiyələr, - deyü sonımı andım, ağladım, oğul! - dedi. Uruz burada soylamış, gözəlim, xanım, nə söylamış; aydır:

A bəg baba!  
Dəvəcə böyumişsən, köşəkcə əqlin yoq!  
Dəpəcə böyimişsən tarıca beynin yoq!  
Hünəri oğul atadanımı görər, ögrənər,  
Yoxsa atalar oğuldanmı ögrənür?  
Qaçan sən məni alub kafər sərhəddinə çıqardın  
qılıc çalub baş kəsdin?  
Mən səndən nə gördüm, nə öyrənim? - dedi.

Dialoqdan məlum olur ki, Uruzun sözləri atasına çox sərt və tənqidi mənalarda səslənir.

Burada iki tərəfdə də günahkarlıq vardır. Belə ki, ata oğluna təlim vermədən, ondan igidlik qəhrəmanlığı tələb edir, oğul isə Oğuzun ədəb-ərkan tərbiyəsindən kənara çıxır, sərt və təhqiredici cavablar verir. Əlbəttə, bu hal Oğuz elində yaxşı qarışlanmır, Uruz cavabında yumşaq hərəkət etməli idi. Bu Oğuz elində təsadüfi hal kimi qiymətləndirilə bilər. Beləliklə, qədim Türk cəmiyyətində kamil humanizm təsadüfi deyil. Bu mükəmməl dövlətçiliklə bağlıdır. Dibdə-ortada seçmə (xan) bəylər, sağ tərəfdə sağlar, sol tərəfdə sollar, eşikdə də qaydaya-intizama nəzarət edən yaxınlar:

«Sağda oturan sağ bəglər,  
Solda oturan sol bəglər.  
Eşikdəki inağlar.  
Dəbdə oturan xas bəglər».

6. Oğuz elində əxlaq tərbiyəsinin əsas təkanverici kamil dini tərbiyə idi. Məlumdur ki, İslamdan əvvəl oğuzlar Şaman olmuşlar. KDQ-də İslamı qəbul etmiş oğuzların özlərinə məxsus qədim inamlarının da bəzi izlərinə rast gəlmək mümkündür.

Şamanlıq bir sistem kimi əski türklərdə Göy Türk kağanlığ dövründən qeydə alınmışdır. Şamanlıq, sadəcə olaraq, inamlardan ibarət praktik fəaliyyət növü idi. Kağanlar başqa dinlərə tapınanda da sadə kütlə tək Tanrıya inanırdı. Hətta müsəlmanlığı qəbul edən türklər indi də Allahdan daha çox Tanrı sözünü işlədirlər. Şamanlıqda əsas vəzifə yaman ruhlarla mübarizə aparmaqla ailənin, tayfanın sağlamlığını qorumaqdır. Onlar göy Tanrıya inanırdılar və Tanrının hər şeyin fövqündə duran qüvvə kimi qəbul edirdilər. Şamançılıq bir dünya görüşü kimi əski türk mədəniyyətinin bütün laylarına təsir göstərmişdir.

İslamı qəbul etmiş oğuzların əməli fəaliyyətlərində Şamanlığın izləri qalmışdır. Burası doğrudur ki, oğuz igidləri, qəhrəmanları və onların təmsil etdikləri tayfa dini görüş etibarı ilə müsəlmandırlar. Hətta dastanlarda onların namaz qıldıqlarından, kilsələri yıxıb məscid tikmələrindən danışılır. Məhəmmədin (s.ə.v.) adı çəkilir və s. Lakin bütün bunlara baxmayaraq, əsərdə islamiyyət ruhu, misal üçün bu əsrlərdə yaranmış yazılı ədəbiyyat əsərlərinə nisbətən çox zəifdir. Burada hicab, çox arvadlılıq və s. yoxdur. Hətta alqış və qarğışlar da dini mahiyyət daşımır. (Qılıncıma doğranım, oğlum doğmasın, doğarsa on yaşına varmasın, çaparkən ağ-boz atın büdrəməsin, kölgəlicə ağacın qurumasın və s.) Mübaliğəsiz demək olar ki, əsərdə at, qılınc, qadın və s. islamiyyətlə əlaqədar dini şəxsiyyətərdən daha qabarıq bir şəkildə müqəddəsləşdirilmişdir.

Hələ islamiyyətdən qabaqkı dini görüşlərlə əlaqədar inam və etiqadlar adət və ənənələr də əsərdə aydın bir şəkildə yaşamaqdadır.

Bununla yanaşı KDQ-nın ikinci formalaşma dövrü İslam mədəniyyəti vaxtına düşür.

Dədə Qorqudun peyğəmbər zamanına yaxın tarix səhnəsinə daxil olmasını xəbər verən müqəddimədə İslami ünsürlərin bol olacağı bildirilir.

İslamın qəbulundan sonra Oğuz igid və qəhrəmanları (sonradan «qazilər») öz talelərini Allaha və Qurani Kərimə bağlayaraq vətənin müdafiəsinə qalxıb xarici düşmənlərin basqınına qarşı savaş aparırdılar və nəticədə qalib gəlirdilər. Burada bir epizod da maraqlıdır: «Salur Qazan tutsaq olub oğlı Uruz çıqardığı boyu»nda Qazan deyir: «Kəlisasın yıqub məşçid tikirlər». Yaxud, «Bəkil oğlu Əmranın boyu»nda Əmran kafirlə qarşılaşır. Kafirin qatqat güclü olduğunu duyan bu igid «ucalardan uca Tanrıya» üz tutub ondan məddət diləyir:

Yucalaradan yucasan, yuca Tənri!  
Kimsə bilməz necəsən, görklü Tənri!  
Sən Adəmə tac urdun,  
Şeytana lənət qıldın.  
Bir suçdan ötri  
Dərgahıdan sürdün.  
İbrahimi tutdurdun,  
Xam gönə çulğadun,  
Götürub oda atdurdun.  
Odı bustan qıldın,  
Birligünə sığındım, əziz Allah,  
Xocam mana məded! - dedi (D - 251).

Bunu eşidən kafir deyir:

«Oğlan alındunsa, Tanrınamı yalvarırsan? Sənin bir Tanrın varsa, mənim yetmiş iki bütxanam var». Oğlan deyir: «Ya asi məlun, sən pütlərinə yalvarırsan, mən alimləri yoqdan var edən Allahıma sığındım» - dedi (D - 251).

Həq-Təala Cəbrayilə buyurdu ki: «Ya Cəbrayil, var, sol qulama qırq ərcə qüvvət verdim» - dedi.

Oğlan kafəri götürdi, yerə urdı. Burnundan qanı düdük kibi şorladı. Sıçrayub şahın kibi kafərin boğazın ələ aldı.

Kafər aydır: «Yigit, aman, sizün dinə nə deirlər, dinünə girdim», - dedi. Parmaq götürüb, şəhadət gətirüb müsəlman oldı. Qalan kafərlər bilub, meydanı salub qaçdı» (D - 251, 252).

Yeri gəlmişkən, kafirlə qazinin (Bəkil oğlu Əmranın) dialoqundan aydın olur ki, kafir «deyilən şəxs buddistdir», yəni şamandır». Buradan belə nəticə çıxır ki, Oğuz igidləri yaluz onlara asi çıxan, onları hər zaman hədələyən, onların üzərinə hücuma keçən kafir - xristianlarla deyil, həm də İslama düşmən olan tayfalarla da mübarizə etmişlər, hər zaman İslamın şərəf və məqsədlərini qorumuşlar, onlar (oğuzlar) öz kilsə və məbədlərin İslamlaşdırıb restavrasiya işləri aparmışlar. Bununla yanaşı şamanlığın bir çox əxlaqi adət-ənənələrini - təvazökarlıq, şərab içmək, and içmək və s. alət-ənənələrini saxlamışlar.

Oğuzların vuruşları çox vaxt İslam dini və bu dinin sərvəri Məhəmməd Peyğəmbər uğrundadır.

Oğuz igidləri kafirlərlə vuruşda islami ayinlər icra edir və çoxvaxt Peyğəmbəri xatırlayır, adına salavat söyləyirlər (D - 63). Salavat isə Allaha peyğəmbər üçün müraciət olunan dualar sırasındadır. Salavatla yanaşı, boyların sonlarındakı dualarda «amin» də tez-tez təkrar olunur. Dədə Qorqudun Allahın ən uca adına, yəni «İsmi-əzəm» oxuması, kəramət göstərməsi (Dəli Qacarın əlini havada asılı saxlaması) İslamın abidəyə təsirindən xəbər verir.

Abidənin «Salur Qazan tutsak olub oğlu Uruz çıqardığı boy»da (XI) Qazan xan özünü «Məhəmmədin dini eşqinə qılıc urdum» deyir (D - 277).Bu cür İslami ayinlərin abidədə icra edilməsi kifayət qədərdir.

Beləliklə, KDQ-də aydın olur ki, oğuzlar da İslamı qəbul edib Rəsuləleyhissəlama iman gətirdikləri üçündür ki, bütün əməllərində Allahdan sonra məhz bu müqəddəs şəxsə arxalanırlar. Abidənin on iki boyundan on birinin sonunda dualar «Günahımızı Məhəmməd Mustafa yüzi suyuna bağışlasun» (kts -115, D - 271),«Günahımızı adı görkli Məhəmməd Mustafa hörmətinəbağışlayın!» və s. şəkildə bitir.

***Yusif QAZIYEV,***  
***Pedaqogika üzrə elmlər doktoru,***  
***Əməkdar müəllim***